2018-ci ilin yanvar-iyul aylarında muxtar respublikada bütün maliyyə mənbələri hesabına əsas kapitala 579 milyon 300 min 400 manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,9 faiz çoxdur. Tikinti-quraşdırma işlərinə qoyulan vəsait əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,7 faiz artaraq 549 milyon 804 min manat olmuşdur ki, bu da əsas kapitala yönəldilmiş vəsaitin 94,9 faizini təşkil edir.

2018-ci ilin yanvar-iyun aylarında muxtar respublikada tikinti sahəsində 11478 nəfər işçi çalışmışdır ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,1 faiz çoxdur. Tikinti sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2017-ci ilin müvafiq dövrünə nisbətən 3 faiz artaraq 488,2 manat olmuşdur.